# İlk Avropa Oyunları gələcək uğurların başlanğıcıdır

Bakıda birinci Avropa Oyunlarının baş tutması, idmançılarımızın qələbələri, Təşkilat Komitəsinin uğurlu fəaliyyəti nəinki Avropada, bütün dünyada xoş təəssüratla xatırlanır.

Ölkəmizdə dövlət səviyyəsində idmana göstərilən diqqət və qayğını beynəlxalq mütəxəssislər həmişə yüksək dəyərləndirirlər. Müasir tələblərə cavab verən idman saray və arenalarda beynəlxalq yarışların təşkili üçün analoqu olmayan şərait yaradılıb. Birinci Avropa Oyunlarının iştirakçıları da idman obyektlərinə heyranlıqlarını gizlədə bilməmişlər.

Bəli, dünyanın diqqəti 17 gün ərzində Azərbaycana dikilmişdi. Bakı bu 17 gündə tarixdə ilk Avropa Oyunlarına layiqincə ev sahibliyi etdi. Azərbaycana gəlmiş idmançılar, turistlər onlara göstərilən səmimi, xoş münasibətdən, xalqımızın qonaqpərvərliyindən, tarixi keçmişimizlə tanışlıqdan, milli-mənəvi, bəşəri dəyərlərimizin qorunmasından, tarixi abidələrimizə qayğıdan razı qaldıqlarını bildirdilər.

İlk dəfə Azərbaycanda gerçəkləşdirilən birinci Avropa Oyunlarında hər keçən gün bir-birindən maraqlı, gərgin mübarizələrlə yadda qaldı. Azərbaycan idmançıları qazandıqları qızıl medalların sayına görə də ölkəmizin dünyada böyük idman dövlətlərindən biri olduğunu sübut etdi. İdmançılarımız birinci Avropa Oyunlarında heç zaman silinməyəcək tarix yazdılar. Onlar yarışların 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Heç kim Azərbaycan atletlərinin Avropa Oyunlarında bu qədər medal qazanacaqlarını təsəvvürünə belə gətirmirdi. Amma Azərbaycan atletləri idman tarixində yeni rekord əldə etdilər, qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha təsdiqləyib ölkəmizin adını dünyanın idman tarixinə qızıl hərflərlə yazdılar.

Oyunlar zamanı tamaşaçıları riqqətə gətirən, qürurlandıran həyəcanlı anlar, məqamlar da çox oldu. Azərbaycan Prezidenti İlham Əliyev idman meydanlarında qalibləri təbrik edərək, onlara medalları şəxsən təqdim etdi.

Azərbaycan Avropa Oyunlarına ən yüksək səviyyədə ev sahibliyi etməklə bir daha istənilən beynəlxalq idman yarışlarını keçirməyə qadir olduğunu sübut etdi. Azərbaycan adını Avropa Olimpiya hərəkatının tarixinə yazdırmaqla yeni uğura imza atdı. Bu, xalqımızın, ölkəmizin qələbəsidir. Bu qələbədən doğan sevinc və fərəh hisslərini bu gün hər birimizin simasından sezmək olar. Xalqımız bu tədbiri yüksək səviyyədə həyata keçirməyə nail oldu. Dövlət başçımız İlham Əliyevin qeyd etdiyi kimi, oyunlar çox böyük uğurla, heç bir texniki səhvə belə yol verilmədən keçdi. Azərbaycanın birinci xanımı, “Bakı-2015”in Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva hələ Avropa Oyunlarının açılış mərasimində bəyan etmişdi ki, bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır.

Birinci Avropa Oyunları zamanı xalqımız öz həmrəyliyini, mütəşəkkiliyini bir daha nümayiş etdirdi. Biz bu gün qüdrətli, sabit, öz sözünü deyən və öz maraqlarını qoruyan dövlətin vətəndaşıyıq.

Bakıda baş tutan birinci Avropa Oyunlarının açılış və bağlanış mərasimlərindən sonra istər ölkəmizdə, istərsə də Avropa ölkələrində oyunların nəticələri təhlil olunur, müzakirələr aparılır, qarşıdakı idman yarışlarına hazırlıq məsələləri ön plana çəkilir. Xalqımız idmançılarımıza inanır, güvənir və əmindirlər ki, növbəti idman yarışlarında da idmançılarımız medallarla ölkəmizi şərəfləndirməyə çalışacaqlar.



**Zülfüqar FƏRƏCOV,**
**Azərbaycan Tibb Universitetinin dermatovenerologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi.**